2025-ci il yanvarın 29-da kecirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Fuad Cavadovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2025-ci il tarixli 47 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 12 fevral 2025-ci il

Mən, ekspert qrupunun üzvü Fuad Cavadov 2025-ci il yanvarın 29-da keıirilmiş bələdiyyə seçkilərində 3 saylı Babək – Şahbuz – Kəngərli seçki dairəsindən Şıxmahmud bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Eyvazov Mətləb Hökumət oğlunun seçkilərdə qanun pozuntularına yol verildiyini iddia edərək, bu pozuntuların araşdırılması və müvafiq tədbirlərin görülməsinə dair Azərbaycan Respublikasi Mərkəzi Seçki Komissiyasına ( Bundan sonra – Mərkəzi Seçki Komissiyası) ünvanlanmış 11 fevral 2025-ci il tarixli 47 saylı müraciətini nəzərdən keçirərək **müəyyən etdim:**

Daxil olmuş müraciət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verildiyindən həmin şəxsə geri qaytarılmalıdır.

Belə ki, Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin ( hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 112.1-ci maddələrinə əsasən **rəyə gəldim:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 3 saylı Babək – Şahbuz – Kəngərli dairəsindən Şıxmahmud bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Eyvazov Mətləb Hökumət oğlunun 11 fevral 2025-ci il tarixli 47 saylı müraciəti şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan həmin şəxsə geri göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun ( internet saytına yerləşdirilsin) və surəti müraciət edən şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Fuad Cavadov